Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# 3 May – Türk Dünyasının Həmrəylik Günü

**3 May – Türk Dünyasının Həmrəylik Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Lalə Qəmbərova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Türk Dünyasının Həmrəylik Günü:** 3 May – Türk Dünyasının Həmrəylik Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Bu gün 3 May – Türk Dünyasının Həmrəyliyi Günüdür. Mayın 3-ü türk dünyasında Türkçülük kimi qeyd olunur. Türkçülük bayramının keçirilməsinin tarixi yetmiş ildən çoxdur. Bu tarixi gün ilk dəfə 1944-cü il may ayının 3-də Topxana Hərbi Həbsxanasında Nihal Atsız, Zeki Velidi Togan, Nehdet Sançar və Reha Oğuz Türkkan başda olmaqla, on nəfər məhkum tərəfindən qeyd olunub. Bundan sonra həmin gün daha geniş kütləni əhatə edərək, türkçülər arasında yüksək səviyyədə qeyd olunmağa başlayıb və bir ənənə halını alıb.

Azərbaycanda Türkçülük Günü 1992-ci ilin may ayından qeyd olunur. Millət vəkili Qənirə Paşayeva Türkçülük Gününün təntənəli şəkildə qeyd edilməsi ilə bağlı demişdir: "Təbii ki, bu günü sadəcə qeyd etməməliyik, eyni zamanda düşünməliyik. Düşünməliyik ki, türk dünyasının, türk millətinin gələcəyi üçün hər kəs əlindən gələni etməlidir. Çünki türk millətinin, türk dünyasının gələcəyi bu birlikdən keçir". O, həmçinin bildirib ki, Azərbaycan-Türkiyə arasındakı münasibətlərin, qardaşlığımızın inkişafı türk dünyasının təməlidir. Bu təməl türk dövlətləri və toplumlarının birlik modeli əslində Azərbaycan – Türkiyə birliyinin nə qədər güclənməsindən keçir.

## Türk dilli xalqlar

Dünyada türk xalqlarının sayı 176 milyondan çoxdur. Türk sözünə ilk dəfə Bizans mənbələrində və VII əsrin Orxon-Yenisey abidələrində rast gəlinir. Qədim çin mənbələri türk tayfalarının b.e.ə. II minillikdə mövcudluğu haqqında məlumat verir. Türk xalqlarının dinləri fərqlidir. Böyük bir hissə İslam dininə etiqad edərkən çuvaş və qaqauzlar xristian, yakutlar, dolqanlar və xakaslar şamanist, karaim və krımçaklar iudaizm, uyğurların böyük bir hissəsi isə buddizm dininə inanır. Türk xalqlarının hazırda yeddi müstəqil dövləti vardır: Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr.

Müstəqil türk dövlətlərindən başqa, Rusiya Federasiyasının tərkibində Tatarıstan, Başqırdıstan, Kabarda-Balkariya, Çuvaşıstan, Saxa (Yakutiya), Qaraçay-Çərkəz, Tıva, Xakasiya, Altay Respublikaları və Taymır (Dolqan-Nen) milli mahalı, Çin Xalq Respublikasının tərkibində isə Sintzyan – Uyğur Muxtar rayonu vardır.

Geoloji baxımdan türk xalqları Alp qırışıqlığı zonasında (Türkiyə, Azərbaycan, Cənubi Azərbaycan, Türkmənistanın bir hissəsi, Şimali Qafqaz türk qurumları), Mərkəzi Asiya və Cənubi Sibirin fəal seysmik zonasında (Özbəkistan, Qırğızıstan, Qazaxıstanın bir hissəsi, Xakasiya, Altay, Tıva), Şərqi Avropa (Tatarıstan, Başqırdıstan, Çuvaşiya), Turan (Özbəkistan, Qazaxıstan, Türkmənistan), Sibir və Çin platformalarında yerləşir.

Dil ümumiliyi, el sənətləri, tarixi-coğrafi məkan, şifahi xalq ədəbiyyatı (“Kitabi-Dədə Qorqud”, “Koroğlu dastanı”, “Alpamış”, “Manas”), adət-ənənələr, oxşar toponimlər türk xalqlarını birləşdirən ümumi oxşar xüsusiyyətlərdir. Türklərin ana vətəni Mərkəzi Asiya hesab olunur. Tarixən türklər

miqrasiya edən xalqlar olmuşlar. VII əsrdən başlayaraq üç istiqamətdə – Şimali-Şərqi Asiya, Ural dağları və Qərb tərəfə köç etmişlər.

Türk xalqları Altay dil qrupuna məxsusdurlar. Dil və mənşə fərqinə görə 4 qrupa bölünürlər:

1. Oğuzlar – Anadolu türkləri, Azərbaycanlılar, qaqauzlar, türkmənlər, axısqa türkləri, krım tatarları, Xorasan türkləri və s.
2. Uyğur – özbəklər, həzaralar, salarlar, uyğurlar, tuvalar, şorlar, komasin - tobollar, baraba tatarları, çulumlar və s.
3.Qıpçaq – qazaxlar, qaraqalpaqlar, qumıqlar, qırğızlar, altaylar, noqaylar.
4. Bulqar – tatarlar, başqırdlar, qaraçaylılar, qaraimlər.

Türk xalqlarının inanclarında tanrı əsas yer tutur. VII əsrdən etibarən İslam dininə inanc daha çoxdur. İndiki dövrdə qeyri-müsəlmanlar yakutlar (şaman və xristian), çuvaş və qaqauzlar (xristian), karaim və krımçaklar (yəhudi dininə) sitayiş edirdilər. Tarixin müxtəlif mərhələlərində bəzi türk dövlətləri Avrasiyada geniş ərazilər tutmuş, Afrikanın şimal hissəsini zəbt etmişlər. Türk xalqlarının bəziləri müstəqil dövlət qurmuş, bəziləri müəyyən dövlət daxilində muxtar qurumlar yaratmış, bəziləri isə heç bir özünüidarə hüququna malik deyil və müxtəlif dövlətlərin ərazilərində, Asiyada Əfqanıstan, İran, İraq, Suriya, Avropada Bolqarıstan, Rumıniya, Yunanıstan, Ukrayna, Moldova, Gürcüstan, Rusiya və s. ölkələrdə yaşayırlar. Belə türk xalqlarına qumıqlar, krım tatarları, qaraçaylar, şahsevənlər, türkmənlər, sibir tatarları, bolqar türkləri, əfşarlar və s. aiddir. Bu xalqların çoxu gəlmə xalqlar içərisində assilmilyasiya olunmaqdadırlar.

Türklərin ümumi sayı müstəqil türk dövlətlərində 130 milyondan çoxdur. 50 milyon nəfərə yaxını isə Rusiya və Çin

ərazisində yaşayır. 80 milyondan çox türk isə dünyanın müxtəlif ölkələrində məskunlaşmışdır.

*Dövlət qurumuna malik olanlar:* Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Respublikası, Özbəkistan, Türkiyə, Türkmənistan.

*Dövlət qurumuna malik olmayanlar:*

Axısqa türkləri – 500 min
Sarı uyğurlar – 20,719 nəfərdən çox
Urum-Qıpçaqlar – 106,768 nəfərdən çox
Altaylılar – 67,239 nəfərdən çox
Xorasan türkləri – 830 min
Balkarlar – 108,426 nəfərdən çox
Başqırdlar – 1.705.053 nəfərdən çox
Culumlar – 1 min
Çuvaşlar – 1.8 milyon
Krım tatarları – 500 min
Dolqanlar – 10 min
Qaqauzlar – 300 min
Qaraçaylılar – 300 min
Qəraimlər – 50 min
Qaraqalpaqlar – 550 min
Xakaslar – 90 min
Krımçaqlar – 1.5 min
Qumuqlar – 500 min
Noqaylar – 110 min
Qaşqaylar – 1.757 milyon
Salar – 125 min
Tatarlar – 6.755.000
Naqaybaklar – 9.600
Sibir tatarları – 9.611

Türkmanlar – 3 milyon
Kipr türkləri – 750.000 – 1.000.000
Qərbi Frakiya türkləri – 150.000
Tuvinlər – 264.400
Uyğurlar – 11.000.000
Çelqanlar – 1.700
Kumandılar – 2900
Telengitlər – 3.712
Teleutlar – 3000

Urbanizasiya səviyyəsinə görə Azərbaycan, Qazaxıstan, Türkiyə seçilir. Qurumlardan isə demək olar ki, hamısında (Altay və Tıva istisna olmaqla) şəhər əhalisi çoxluq təşkil edir. Türkiyə, Azərbaycan, Qazaxıstan, Tatarıstan və Başqırdıstan kimi respublikalarda milli gəlirin yarıdan çoxunu çoxsahəli inkişaf etmiş sənaye verir. Bir çox respublikalarda – Özbəkistan, Türkmənistan, Qırğızıstan, Saxa, Altay kimi respublikalarda sənaye ilə yanaşı, kənd təsərrüfatı da iqtisadiyyatın əsasını təşkil edir. Bütövlükdə türk dünyası ölkələrində sənayenin ən başlıca sahələri olan energetika, maşınqayırma, metallurgiya, kimya sənayesi xeyli inkişaf etmişdir.

Neft-qaz hasilatına görə Azərbaycan, Tatarıstan, Başqırdıstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan; daş kömür çıxarılmasında isə Türkiyə, Qazaxıstan, Altay, Saxa dünyada məşhurdur. Bu ölkələrdə enerjiyə tələbat demək olar ki, tam ödənilir. Metallurgiya sənayesində Türkiyə, Qazaxıstan, Qırğızıstan, Azərbaycan və Özbəkistan fərqlənir.

# Kitab sərgisi












***Dəyirmi masa*** – Türk Dünyasının Həmrəylik Günü ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da bir sıra tədbirlərin keçirilməsi planlaşdırılır. Türk xalqlarının tarixini, ədəbiyyatını və mədəniyyətini şagirdlərə, tələbələrə, gənc nəslə tanıtmaq məqsədilə kitabxanalarda **"Qədim türk dövlətinin yaranması"** mövzusunda *"dəyirmi masa"*nın keçirilməsi faydalı olardı. Dəyirmi masada ilk növbədə müzakirə olunacaq məsələlər müəyyənləşdirilməli, qonaqlar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalıdır. Oxucuları və geniş ictimaiyyəti məlumatlandırmaq məqsədilə kitabxananın saytında, sosial şəbəkələrdə keçiriləcək tədbir barədə anons verilməlidir.

**I iştirakçı:** Ən qədim dövrlərdən başlayaraq türkləri xarakterizə edərkən göstərilən ən mühüm keyfiyyətlərdən biri onların zəngin dövlət quruculuğu və idarəçiliyi mədəniyyətinə malik olmalarıdır.

Göy türklərin Kül tiqin abidəsi (732) məlumat verir:

"Yuxarıda mavi göy, aşağıda qara yer yaradıldıqda onların arasında insan oğlu yaradıldı. İnsan oğlu üzərində dədə-babalarım Bumın kağanla İstemi kağan hakim oldular. Hakim olub türk xalqının elini, törəsini idarəçilik qayda-qanunlarını dirçəldib möhkəmləndirdilər".

Göründüyü kimi, hər şeydən əvvəl, qədim türklər inanırlar ki, kağan hakimiyyətə Tanrının iradəsi ilə gəlir. Və bunu, maraqlıdır ki, kağan özü də etiraf edir: "Türk xalqının adı-sanı yox olmasın deyə, atam kağanı, anam xatunu yüksəldən Tanrı, el verən Tanrı türk xalqının adı-sanı yox olmasın deyə məni taxta oturtdu".

Və beləliklə, Tanrı türk kağanını seçir. Türk kağanı hakimiyyətə ona görə gətirilir ki, xalqın normal yaşayışını, şərəfini təmin etsin. Bunun üçünsə türk törəməsinə,

dədə-babalardan qalmış möhkəm və müqəddəs qayda-qanunlara əməl etmək lazımdır. Bu tələb həm kağana, həm də xalqa aiddir.

"Türk" sözünün bir neçə etimoloji mənalarından (törəmək, artmaq, güclü, qüdrətli və s.) biri də "törəsi ( qayda-qanunları) olan, yaxud ona riayət edən" deməkdir. Əslində, "türk" sözünə verilən populyar tarixi interpretasiyalardan hər üçü məna-məzmunca bir-birilə səsləşir: törəmək-törə ilə yaşamaq – güclü-qüdrətli olmaq.

**II iştirakçı:** Tarixin və ya tarixşünaslığın yaddaşında qalmış ən qədim türk dövləti Turan e.ə. I minilliyin ortaları, ilk böyük türk hökmdarı isə Alp Ər Tonqadır.

E.ə I minilliyin sonlarına doğru türklərin Hun siyasi birliyi formalaşır ki, onun yaradıcısı Tümən kağan idi. Və beləliklə, Böyük Türk Kağanlığının "əbədi" tarixi başladı.

Tüməndən sonra hakimiyyətə oğlu Mete – qədim türk eposunun qəhrəmanı Oğuz kağan keçir. Və onun zamanında Böyük Türk Kağanlığının hüdudları xeyli genişlənərək bütövlükdə Böyük Çölü əhatə edir.

Eramızın ilk əsrlərindən Şərqdən Qərbə axan hunlar həm bir sıra müasir türk (qıpçaq) xalqlarının əsasını qoyur, həm də türk dövlətçilik mədəniyyətini Avropaya yayırlar.

I minilliyin ortalarında Böyük Türk Kağanlığı – Göy Türk dövləti yaranır. Əvvəlki türk dövlətləri kimi əsas coğrafiyasını Böyük Çölün təşkil etdiyi Göytürk imperiyası dövründə türklərin dövlət quruculuğu və idarəçiliyi texnologiyaları barəsində yalnız şifahi yox, həm də zəngin yazılı mənbələr – "Kültiqin, Bilgə kağan, Tonikuk abidələri mövcuddur.

Turan, Hun və Göytürk dövlət – imperiyalarından sonra türklər dünyaya harmoniya gətirən bir sıra böyük siyasi birliklər də yaradırlar: Qaraxanlılar, Səlcuqlar, Moğollar, Qızıl Ordalılar, Səfəvilər, Osmanlılar...

E.ə II minilliyin sonu I minilliyin əvvəllərindən başlayan təxminən üç min illik ardıcıl, davamlı tarixə malik türk dövlətçilik ənənəsinin kifayət qədər universal qanunauyğunluqlarından, modellərindən bəhs etmək olar.

Türk cəmiyyətinin strukturu, məlum olduğu kimi: 1) ailə (oğuş); 2) ailələr birliyi (uruğ); 3) tayfa (boy); 4) tayfalar birliyi (budun); 5) xalq (el) iyerarxiyasına əsaslanır.

Tayfanı – bəy; tayfalar birliyini – yabqu, şad və ya iltəbər; xalqı isə kağan idarə edir.

***Oxucularla söhbət*** – Türk Dünyasının Həmrəyliyi Günü ilə bağlı kitabxanada *"Türk xalqlarının təfəkkür tarixi"* mövzusunda *"oxucularla söhbət"* adlı tədbir də keçirtmək olar. Tədbirə məktəb şagirdlərini, universitet tələbələrini, tarixçiləri, ziyalıları dəvət etmək olar.

**I oxucu:** Türkün vətəni yerlə göy arasında idi, onu göylərə hakim edən ruh, yerlərə sahib edən isə təfəkkürü idi. Türk bu haqqa ruhunu gəzdirdiyi qanla, varlığının rəmzi olan sümüklə sahib olmuşdu. Harada ki, qanı axıb orada türkün ruhu əbədiləşib, harada türkün sümüyü var, ora onun vətənidir.

Türk təfəkkürünün əsasında türkçülük dayanır. "Türkçülük türk millətini yüksəltmək deməkdir" (Z.Göyalp). Fəqət, türkçülük millətçiliklə yox, Vətən anlayışı ilə daha çox bağlıdır. Türkün Vətən ölçüsü miqyassızdır, o metrlə, arşınla ölçüyə gəlmir; Yer, göy və Günəşdir türkün vətən ölçüləri. Belə ölçülər heç də, bir çox alimlərin yozduğu kimi, türkün iddiasından, işğalçılıq niyyətlərindən irəli gəlmir. Türkün hüdudsuz ruhunun ifadəsi idi. Türk mühiti, türk cəmiyyəti başqa xalqlar üçün münbit torpaq kimidir. Onlar bu torpaqda rahat, sıxıntısız boy atırlar.

Türklər bəşəriyyətin əbədi uşaqlarıdır. Uşaq dünyaya məhəbbətin gözü ilə baxıb hamını özünə doğma hesab etdiyi kimi, türklər də bütün xalqları özlərinə dost hesab edirlər.

Onların aldanışları da, bu gözəllikdən, səmimiyyət və mərdlikdən doğur.

Qədim türklər üçün Vətənin simvolu torpaq idi. Bu baxımdan Hun imperiyasını formalaşdıran Metenin sözləri milli yaddaşımıza baş hərflərlə yazılmalıdır. “Torpaq dövlətin təməlidir, onu heç kəsə vermək olmaz. Torpaq mənim deyil, xalqındır. Xalqın torpağını verməyə heç kimin ixtiyarı çatmaz. Mən torpağı verə bilmərəm, bu torpaq gələcək nəslə çatdırılmalıdır. Ya xalq məhv olmalı, ya da torpağını öz qanı hesabına qorumalıdır”.

Türklər İslamı sadəcə qəbul etmədi, əsrlər boyu onu özlərinə, mühit və əxlaqlarına doğmalaşdıraraq qorudular. Bu baxımdan dünyanın ən böyük türklərindən biri Əmir Teymurun “Qanunnamə” sindəki etiraf olduqca maraqlıdır: “Təcrübə mənə göstərdi ki, dinə və qanuna əsaslanmayan hakimiyyət öz mövqeyini və gücünü uzun müddət mühafizə edə bilməz. Məhz buna görə də mən öz əzəmətimin binasını İslam üzərində qurdum. Mən onu imperiyamın zinətinə çevirdim”.

K.Marks maraqlı bir cəhət müşahidə edib, yazırdı: “Türk hökmdarları və başçıları bütün məzhəb və dinlərə eyni gözlə baxırdılar”. Bu türk təfəkkürünün böyüklüyündən, türk ruhunun genişliyindən irəli gəlirdi. Elə buna görə də türklər təkcə islami mühitlə – Şərqə deyil, digər mühitlərə, məsələn, Avropaya da nüfuz edə bilirdilər.

Türk üçün qəhrəmanlıq fövqəladə deyil, adi bir iş, peşə və məşğuliyyət idi. Qədim türklərin rəşadət və şücaəti də onların təfəkküründə, fəlsəfəsində əsas yer tutan əxlaqa əsaslanırdı. Əxlaq, xüsusilə Vətən əxlaqı bütün türkləri ətrafına toplayan, onlara milli birlik verən ən başlıca qayə, ən mükəmməl duyğu idi. Böyük türkçü Z.Göyalpın “Türkçülüyün əsasları” əsərində oxuyuruq: Böyük millətlərdən hər biri mədəniyyətin xüsusi bir sahəsində birinciliyə çatmışlar. Əski yunanlar estetikada,

romalılar hüquqda, israillilər və ərəblər dində, fransızlar ədəbiyyatda, anqlosakslar iqtisadda, almanlar musiqi ilə metafizikada, türklər isə əxlaqda birinciliyi qazanmışlar. Tarixdəki türk imperiyalarının, türk dövlətçiliyinin əsasında məhz belə bir mükəmməl əxlaq dururdu. Belə hesab edirik ki, türk dövlətçilik tarixi öyrənilərkən bu problemə xüsusi diqqət yetirilməli, o ön plana çəkilməlidir. Ümumiyyətlə, dövlət əxlaqına nail olmaq dövlətçilikdə demokratizmin bariz göstəricisidir. Dövlət əxlaqının başlıca şərti qanunun aliliyi ilə bərabər, hər bir fərdin şəxsiyyətin qorunması və ucaldılmasıdır.
**II oxucu:** Qədim türklərin təfəkkürü mifik-obrazlı təfəkkür idi. Yerlə göy arasındakı dünya haqqında onların özünəməxsus obrazlı anlayışı var idi. Məsələn, Qobustan qaya rəsmləri bu obrazlı işarəvi təfəkkürü çox gözəl əyaniləşdirir. Bu heç də o demək deyil ki, türklər tarixi analitik təfəkkürə malik olmamışlar. Bəzi türkoloqlar belə mülahizə irəli sürür ki, türklər tarixi təfəkkürə sonralar, mifik təfəkkürdən keçmişlər. Halbuki bu belə deyil, qədim türklərdə obrazlı və analitik təfəkkür üzvi tərzdə mövcud olmuşdur. Qədim türk yazıları – Orxan-Yenisey kitabələri ideya ardıcıllığının mükəmməlliyi ilə bu gün də dünyanı heyran qoymaqdadır. Türk dünyagörüşü, türk tarixi və dövlətçiliyi haqqında sistemli, konseptual fikir ifadə edən bu yazıları dünya türkoloqları, o cümlədən B.Çobanzadə və A. Musaxanlı 20-ci illərdə obrazlı fikir və dil faktı hesab edirdilər.

Qədim türk təfəkkürünün ən aydın ifadəsi həmin abidələrdə həkk olunmuş türk yazısı idi. “Türklərdə sözün gücü real güc hesab olunurdu” (L.Qumilyov). Çünki türk sözünün mahiyyətində aydın qayə dayanırdı. Aydın qayə real həyat məqsədlərindən irəli gəlir, türk dövlətinin strategiyasını ifadə edirdi.

Türk təfəkkürü üçün səciyyəvi olan qlobal bir ziddiyyəti də qeyd etməliyik: Türk təfəkkürü gələcəyə yönəlmişdi, ona görə də keçmişə biganə idi!

Gələcəyə yönəlməsi bu təfəkkürün qüdrəti, keçmişə biganəlik isə onun faciəsi və sonrakı məğlubiyyətlərinin səbəbi idi. Görün XVIII əsr fransız maarif – filosofu Monteskyö nə yazıb: "Dünyanın heç bir xalqı fatehlik şöhrəti və əzəməti ilə türklərlə yarışa bilməz. Bu müzəffər xalqın yalnız tarixçiləri çatışmayıb ki, onların ağlagəlməz qələbələrinin şöhrətini yaysınlar, nə qədər ölməz əməllər əbədilik dəfn olunub. Türklər tarixlərini bilmədiyimiz nə qədər dövlətlərin əsasını qoyublar. Bu cəngavər xalq öz gündəlik şöhrəti ilə məşğul olub, əbədi məğlubedilməzliyinə inanıb, keçmiş qələbələrinin əbədiləşdirilməsinə qayğısına qətiyyən qalmayıb". Bu ibrətli bir həqiqətdir. Türklər bəşəriyyətin qibtə etdiyi çox şərəfli bir tarix yaradıblar, fəqət onu əbədiləşdirmək qayğısına qalmayıblar. Ona görə də türkün dünyada çox güclü olan düşmənləri uzun illər asanlıqla türk tarixini süni müəmmalardan toxunmuş pərdə arxasında gizlədə biliblər. Türkün tarixi layiq olduğu şəkildə, özü də bu tarixə sevgi ilə öyrənilməli və dünyaya çıxarılmalıdır.

Türk təfəkkürünü türkün hüdudsuz ruhundan ayırmaq mümkün olmadığı kimi, onu türkün fatehliyindən də əlahiddə təsəvvür etmək çətindir. Türkün ruhu, təfəkkürü və şücaəti birləşərək ona dünya şöhrəti gətirib.

Türk mədəniyyətini araşdırmaq, qorumaq, tanıtmaq və gələcək nəsillərə ötürmək məqsədilə F. Köçərli adına Respublika Uşaq Kitabxanası və TÜRKSOY-un birgə layihəsi əsasında **"Türk dünyasının nağıl bağı"** adlı kitabı çap olunmuşdur. Nağıllar bizə uşaqlıq dövründən yüksək mənəvi-tərbiyəvi keyfiyyətlər aşılamaqla yaxşılıq etməyi öyrədib. Uşaqlar kitabda yer alan türk dünyasının nağılları ilə tanış olarkən bizim adət-ənənələrimizi, bir-birinə yaxın

mədəniyyətimizi yaxından öyrənə biləcəklər. “Türk dünyasının nağıl bağı” kitabı uşaqların mənəvi, əqli və psixoloji inkişafı üçün nəzərdə tutulmuş ən ümdə layihələrdəndir. Layihə türk xalqları arasında mədəni və mənəvi əlaqələri genişləndirməklə yanaşı, uşaq folklorunun gələcək nəsillərə çatdırılması baxımından da əhəmiyyətlidir. Həmçinin “Türk dünyasının nağıl bağı” kitabı uşaqların dünyagörüşünə fayda verməklə onların türk dünyasının mədəniyyətini, folklorunu daha da dərindən mənimsəmələrinə şərait yaradacaq. “Türk dünyasının nağıl bağı” kitabı, eyni zamanda, balacaların intellektinin inkişafına da müsbət təsir göstərəcək.

3 May – Türk Dünyasının Həmrəylik Günü ilə bağlı kiçik yaşlı oxuculara “Türk xalqlarının nağılları”nı tanıtmaq məqsədilə kitabxananın nağıl otağında səhərcik təqdim etmək olar. Bunun üçün otaq nağıla uyğun dekorasiyalarla bəzədilir.

## Atanın üç məsləhəti

**Kitabxanaçı:** Qədim zamanlarda qoca bir kişi vardı. O öz oğlanları ilə birlikdə yaşayırdı. Bu qocanın ölüm vaxtı gəlib çatır. Oğlanlarının ikisini də yanına çağırıb deyir:

– Əziz balalarım, var-dövlətimi sizə qoyub gedirəm. Ancaq siz bu dövlətlə varlanmayacaqsınız. Sizə puldan qiymətli, var-dövlətdən dəyərli üç məsləhət verirəm. Onları yadınızda saxlasanız, ömrü boyu firavan, bolluq içində yaşayacaqsınız. Məsləhətin bunlardır, yadınızda saxlayın: heç kəsə birinci baş əyməyin. Gözləyin başqaları sizə baş əysin. Nə cür yemək olursa-olsun, balnan yeyin. Həmişə pərqu balışda yatın.

**Kitabxanaçı:** Qoca Allah rəhmətinə gedir. Oğlanları onun məsləhətini unudur, özləri istədiyi kimi yaşayıb kef çəkirlər: içirlər, gəzirlər, çoxluca yeyirlər, yatırlar. Birinci ili atalarının pulunu tamam xərcləyib qurtarırlar. İkinci ili bütün mal-qaranı

satıb-sovururlar. Üçüncü ili evdə nə vardısa, hamısını satıb qurtarırlar. Yeməyə daha bir şeyləri qalmır.

**Böyük qardaş deyir:**

– Axı atamız bizə var-dövlətdən əlavə üç məsləhət də vermişdi. Demişdi ki, onlarla ömrümüzün axıranacan firavan, bolluq içində yaşayacağıq.

**Kiçik qardaş deyir:**

– Atamın dediyi məsləhətlər yadımdadır, ancaq onların nə qiyməti var ki? Atam demişdi ki: "Heç kəsə birinci baş əyməyin, qoy başqaları sizə baş əysin". Bundan ötrü gərək varlı olasan, indi isə hal-hazırda bütün mahalı gəzib-dolaşasan, bizdən kasıbını tapa bilməzsən. O demişdi: "Nə cür yemək olur-olsun, balnan yeyin". Eşidirsənmi, balnan. Bizim heç quru yuxamız da yoxdur, o ki bal olsun. Atamız demişdi: "Həmişə pərqu balışda yatın". Pərquda yatmaq, əlbəttə, yaxşı olardı. Amma evimiz bomboşdur, heç köhnə keçəmiz də qalmayıb.

**Böyük qardaş bir xeyli fikrə gedir, sonra deyir:**

– Sən nahaq yerə gülürsən, qardaşım. Biz o vaxt atamızın öyüdünü anlamamışıq. Amma onun sözlərində bir müdriklik var. O istəyirmiş ki, dan yeri ağarmağa başlayanda tarlaya işləməyə gedək, bax, onda hamı, yanımızdan ötüb keçən hər kəs bizə salam verəcək. O vaxt bütün günü yaxşıca işləyəcəksən, evdə yorğun-arğın, ac qayıdacaqsan. Bax, onda bir parça quru yuxa da sənə baldan şirin olacaq. Onda hər necə yataq olur-olsun fərqi yoxdur, ürəyinə yatacaq, xoşuna gələcək, şirin-şirin yatacaqsan, elə biləcəksən ki, pərqu yastıqda yatırsan.

**Kitabxanaçı:** Ertəsi günü dan yeri ağarar-ağarmaz qardaşlar durub tarlaya yollanırlar. Hamıdan əvvəl gəlib çıxırlar iş yerinə. Adamlar işə gedir, ilk əvvəl qardaşlara salam verir, onlara xoş gün, yaxşı iş arzu edirlər. Bütün günü qardaşlar bellərini belə dikəltmirlər, axşam isə bir parça yuxu ilə çay onlara baldan şirin

görünür. Sonra da qardaşlar quru döşəmənin üstəcə yıxılıb yatırlar, elə bilirlər ki, pərqu içində yatıblar.

Bu minvalla qardaşlar hər gün işləyir, payızda da yaxşı məhsul götürür, yenidən bolluq içində firavan yaşamağa başlayırlar. Yenə qonşular onlara hörmət edirlər.

Qardaşlar tez-tez atalarının müdrik sözlərini yada salırlar.

***Elmi-praktiki konfrans*** – Kitabxanalarda yuxarı sinif şagirdləri, ədəbiyyat və tarix fakültələrinin tələbələri ilə **"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası" mövzusunda elmi-praktiki konfrans** da keçirtmək olar. Konfransdan öncə onun propramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən edilməlidir. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçirələcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı qonaqların çıxışları dinlənilir.

**Kitabxanaçı:** Salam hörmətli qonaqlar, tədbir iştirakçıları. Sizləri 3 May – Türk Dünyasının Həmrəylik Günü ilə bağlı keçirilən elmi-praktiki konfransda görməyimizə şadıq.

**I iştirakçı:** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etmək olan beynəlxalq hökumətlərarası təşkilatdır. Təşkilat türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir.

Türk Şurası 1992-ci ildən etibarən keçirilən türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərindən qaynaqlanan ümumi siyasi iradənin nəticəsi olaraq yaranmışdır.

2010-cu ildə İstanbulda keçirilən 10-cu Zirvə Görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyi fəaliyyətə başlamışdır. Türk Şurası təsis edildikdən sonra zirvə görüşləri

"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşləri" olaraq adlandırılır. Təşkilat yarandıqdan sonra Almatı, Bişkek, Qəbələ, Bodrum və Astana olmaqla beş zirvə görüşü keçirilmişdir.

**Türk Şurasının birinci Zirvə Görüşü** "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 20-21 oktyabr 2011-ci il tarixlərində Almatı şəhərində baş tutmuşdur.

**Türk Şurasının ikinci Zirvə Görüşü** 22-23 avqust 2012-ci tarixlərində Bişkek şəhərində keçirilmişdir. Zirvə görüşü mövzusu "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" olmuşdur.

**Türk Şurasının üçüncü Zirvə Görüşü** 15-16 avqust 2013-cü il tarixlərində Qəbələ şəhərində keçirilmişdir. Zirvə görüşün mövzusu "Nəqliyyat və bağlantı" olmuşdur.

**Türk Şurasının dördüncü Zirvə Görüşü** "Turizm sahəsində əməkdaşlıq" mövzusu adı altında 4-5 iyun 2014-cü il tarixlərində Bodrum şəhərində keçirilmişdir.

**Türk Şurasının beşinci Zirvə Görüşü** 10-11 sentyabr 2015-ci il tarixlərində "Media və informasiya sahəsində əməkdaşlıq" mövzusu adı altında Astana şəhərində keçirilmişdir.

**II iştirakçı: Türk Şurasının strukturu, məqsəd və vəzifələri.**

Türk Şurasının əsas fəaliyyət məqsədləri və vəzifələri Naxçıvan Sazişi ilə müəyyən edilmiş və aşağıdakılardan ibarətdir:

- Tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi;
- Regionda və dünyada sülhün bərqərar edilməsi;
- Xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi;
- Beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi;
- Ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi;

- Ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması;
- Hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi;
- Elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi;
- Kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi;
- Hüquqi məlumatların mübadiləsinin, hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi.

Türk Şurasının öz vəzifələrini yerinə yetirə bilməsi və qarşıya qoyulan məqsədlərə nail ola bilməsi üçün struktur aşağıdakı kimi formalaşdırılmışdır:

- Dövlət Başçıları Şurası
- Xarici İşlər Nazirləri Şurası
- Yüksək Vəzifəli Şəxslər Komitəsi
- Ağsaqqallar Şurası
- Katiblik

Dövlət Başçıları Şurasının toplantısına ev sahibliyi edən üzv ölkə növbəti zirvəyə qədər Türk Şurasına sədrlik edir.

**III iştirakçı: Əlaqəli orqan və təşkilatlar**. Qərargahı Ankarada yerləşən *TÜRKSOY* (Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı) 1993-cü ildə təsis edilmişdir. Təşkilatın fəaliyyət məqsədi üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi, eləcə də türkdilli ölkələr arasında mədəni əlaqələrin dərinləşdirilməsidir.

*TÜRKPA* (Türkdilli Ölkələrin Parlament Assambleyası) İstanbul sazişi əsasında yaradılmış, 2008-ci ildə fəaliyyətə

başlamışdır. Qərargahı Bakıda yerləşir. Assambleyanın məqsədi türkdilli ölkələrin parlament strukturları arasında əməkdaşlığın genişləndirilməsindən ibarətdir.

*Türk Akademiyası* 2010-cu ildə Qazaxıstanda qeydiyyatdan keçmiş təşkilat olaraq fəaliyyətə başlamışdır. Türk Akademiyasının yaradılması haqqında saziş 22-23 avqust 2012-ci ildə Türk Şurasının Bişkekdə keçirilən 2-ci Zirvə Görüşündə imzalanmış və Akademiyaya beynəlxalq status verilmişdir. Türk Akademiyası Astanada yerləşir. Türk dilinin, ədəbiyyatının, mədəniyyətinin və etnoqrafiyasının tədqiqini koordinasiya və təşviq etmək məqsədilə fəaliyyət göstərir. Akademiyanın digər fəaliyyət məqsədləri türk xalqlarının mədəni və mənəvi irsinin tədqiq edilməsi, dünya sivilizasiyasının inkişafında payının artırılması, dünya ictimaiyyətinin türk xalqlarının nailiyyətləri haqqında məlumatlandırılmasıdır.

*Türk Mədəniyyəti və İrsi Fondunun* Nizamnaməsi 22-23 avqust 2012-ci ildə Bişkek Zirvəsində imzalanmışdır. Qərargahı Bakı şəhərində yerləşən Fond türk dünyası ilə bağlı müxtəlif tədbirlər, layihələr və proqramları maliyyələşdirmək və dəstəkləmək yolu ilə türk mədəniyyətinin və irsinin qorunmasına, tədqiqinə və təbliğinə köməklik göstərəcəkdir.

*Türk Biznes Şurası* 2011-ci ildə təsis edilmişdir. Qurum Türk Şurasına üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir.

***Beynəlxalq əməkdaşlıq.***Türk Şurası beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verir. Şura artıq İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurmuşdur.

**I iştirakçı:** 16 avqust 2013-cü ildə Qəbələdə keçirilmiş üçüncü Zirvə Görüşündə Dövlət Başçıları Şurası türkdilli dövlətlər

arasında gömrük sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə işçi qruplarının yaradılmasını alqışlamışlar. Üzv dövlətlərin gömrük orqanları rəhbərlərinin birinci görüşü 5 oktyabr 2012-ci ildə Naxçıvanda keçirilmiş, Türk Şurası gömrük orqanları rəhbərlərinin birinci görüşünə dair Bəyannamə imzalanmışdır.

Eyni zamanda 3-5 aprel 2014-cü il tarixlərində 13-cü Azərbaycan Beynəlxalq Səyahətlər və Turizm Sərgisi çərçivəsində ortaq fotoşəkil sərgisi təşkil edilmişdir. 10-11 aprel 2014-cü il tarixlərində İstanbulda turizm sahəsində əməkdaşlıq üzrə işçi qrupunun ikinci, turizm nazirlərinin isə birinci iclası keçirilmiş, üzv ölkələr arasında "Turizm sahəsində birgə əməkdaşlıq Protokolu" imzalanmışdır. Turizm nazirlərinin ikinci toplantısı 2015-ci ilin may ayında Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilmişdir.

Ölkəmizin Təşkilata sədrliyi dövründə 22 noyabr 2013-cü il tarixində TDƏŞ-ə üzv ölkələrin **təhsil** nazirlərinin Eskişehirdə ikinci iclası keçirilmiş, Mövlana mübadilə Proqramının dəstəklənməsi, Türk Akademiyası tərəfindən birgə tarix dərsliklərinin hazırlanması, texniki və peşə təhsili sahəsində əməkdaşlığa başlanılması, ali və təhsil müəssisələrində üzv ölkələrin dillərinin öyrənilməsi, Türk Univestitetlər Birliyinin yaradılması və s. ilə bağlı məsələlər müzakirə edilmiş, müvafiq qərarlar qəbul edilmişdir.

Türk Şurası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə 21 iyun 2013-cü il tarixində Bakıda ilk dəfə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin **diaspor** təşkilatları rəhbərlərinin I Forumu keçirilmişdir. Forumda "Türkdilli dövlətlərin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" və "Bakı Bəyannaməsi" qəbul edilmişdir.

**II iştirakçı:** Azərbaycanın təşkilat çərçivəsində **siyasi və təhlükəsizlik məsələləri** sahəsində əməkdaşlığı uğurla davam etməkdədir. Naxçıvan Sazişinə uyğun olaraq hər il keçirilən zirvə görüşlərindən bir gün əvvəl TDƏŞ xarici işlər nazirləri

Şurasının görüşləri keçirilir. Eyni zamanda Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyaları çərçivəsində xarici işlər nazirlərinin qeyri-formal görüşlərinin keçirilməsi artıq ənənə halını almışdır.

2013-cü ildən başlayaraq üzv ölkələr arasında mütəmadi olaraq təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr keçirilməyə başlamışdır. Üzv ölkələrin yüksək vəzifəli şəxslərinin ilk görüşü 2013-cü ilin aprel ayında Bakıda, ikincisi isə 2014-cü ilin mart ayında Astanada keçirilmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Əfqanıstan üçün İstanbul prosesi, regional münaqişələr, beynəlxalq terrorizmlə mübarizə və s. məsələlər müzakirə edilmişdir. TDƏŞ-in bu günə qədər keçirilmiş bütün zirvə görüşlərində olduğu kimi, üzv ölkələrin dövlət başçıları tərəfindən 11 sentyabr 2015-ci il tarixində Astanada qəbul edilmiş Beşinci Zirvə Görüşünün Bəyannaməsində tərəflər, **"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı əsasında həllinin vacibliyini bir daha vurğulamışlar".**

Azərbaycan TDƏŞ-lə yanaşı bu qurumun əlaqəli orqan və təşkilatları olan TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası ilə də sıx əməkdaşlıq edir və üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi sahəsində aktiv rol oynayır. Təsadüfi deyildir ki, TDƏŞ-in 2012-ci ildə Bişkekdə keçirilmiş İkinci Zirvə Görüşündə Azərbaycanın təşəbbüsü ilə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu 2015-ci il tarixindən etibarən qərargahı Bakı şəhərində yerləşməklə beynəlxalq təşkilat kimi fəaliyyətə başlamışdır.

## Ədəbiyyat siyahısı

**Abbasov A.** Böyük türk : uşaq və yeniyetmələr üçün. - Bakı : AzAtaM, 2007. - 28 s.

**Azərbaycan - Türkiyə** münasibətləri 1920-1922. - Bakı : AzAtam, 2002. - 335 s. - Azərbaycan və rus dilində.

**Cahangirli, C. (Hacı).** Azərbaycan Türkiyə - Bakı : Çaşıoğlu, 2004. - 104 s. : rənkli foto.

**Dilsuz.** Atatürkün imzası. - Bakı : Beşik, 2008. - 18 s. : rəngli şək. - (Mən və mənim dünyam. Gövəncin nağılları).

**Əbülfətqızı Ş.** Türkiyə-Azərbaycan - bir ürəkdə iki can : publisistik məqalələr. - Bakı : Araz, 2006. - 294 s. : xəritə, foto.

**Əbülfətqızı Ş.** Türkiyə-Azərbaycan: böyük qardaşlığın əlifbası : publisistik düşüncələr. - Bakı : Araz, 2005. - 210 s.

**Əhmədli N.** Mustafa Kamal Atatürk : portret cizgiləri. - Bakı : AzAtam, 2002. - 220 s. : şək.

**Əli A.** Böyük ömrün anları : Mustafa Kamal Atatürkün və Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən fəlsəfi-publisistik foto-illüstrativ esse. - Bakı : Təhsil, 2004. - 220 s. : rəngli foto.

**Əliyev E.** Türkün zəfər tarixi : ədəbi-tarixi düşüncələr. - Bakı : Adiloğlu, 2008. - 228 s. : il.

**Mehdiyeva Z.** Mustafa Kamal Atatürk : Zəfər sirləri. - Bakı : Elm və Təhsil, 2017. - 312 s. : foto. - (Azərbaycanda Atatürk Mərkəzi).

**Məmmədli N.** Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. - Bakı : AzAtaM, 2005. - 234 s.

**Rüstəmov Y.** Türk fikir tarixi haqqında mülahizələr. - Bakı : Çaşıoğlu, 2005. - 140 s.

# 3 May – Türk Dünyasının Həmrəylik Günü

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 30
Çapa imzalanmışdır: 11.04.2018
Tirajı:100
Pulsuz